Azərbaycan.- 2021.- 21 aprel. S. 10.

# Şahin uçuşunun hekayəsi

*44 gün davam edən haqq savaşındakı Zəfərdən hamımız sevincliyik. İçimizdəki xoşbəxtlik hissi vətən sevdası ilə bağlı olduğundan bu döyüşlərdə itirdiklərimizin anındaca fərqinə varmırdıq. Çünki oğulların ruhunda dolaşan, onlara güc verən vətən, ana, torpaq məhəbbəti vardı. Bu məhəbbətin gücü idi ki, əlçatmaz zirvələr fəth edildi. 30 ilə yaxın zaman kəsiyinin 44 günlük zəfər marşı qalibiyyət hökmünü torpaqlarımıza əbədi həkk etdi.*









Öz qanı ilə torpağı sulayan, onu müqəddəsləşdirən oğullar sırasında Şahin Hüseynbala oğlu Allahyarov da var. İçindəki sevginin gücü onu döyüşlərdən keçirərək şəhidlik zirvəsinə yüksəltdi.

Ziziklilər səfalı yerdə məskən qurublar. Qubanın bu kəndi bərəkətli alma bağları və təbii ki, insanları ilə bölgədə seçilir. Beləcə bir torpağın üzərində dünyaya gəlmişdi Şahin. Anası Nərgiz xanım həmin sevinci belə xatırlayır:

- Mən çox inanclı insanam. Şahinin uşaqlığını xatırlayanda düşünürəm ki, deme, mən onu torpaq üçün doğmuşammış. Ayaq açıb yeriyəndən torpaqdan əl çəkmirdi. Torpaqla oynayar, müxtəlif fiqurlar düzəldər, onları yanaşı düzərdi. Xoşuna gəlməyənini əzər, yenidən düzəldərdi. Atası həyətdə işləyəndə balaca olmasına baxmayaraq, yanında ən çox Şahin olardı. Bir də görərdin ki, pilləkəni döyərək kişiyana "atam çay istəyir, tez gətirin" deyərdi. Hamı kimi doğulsa da, hər hərəkəti ilə başqalarından seçilirdi. Mən onu heç zaman ədalətsiz görmədim. Hətta məktəbə gedəndə özündən balacaların çantalarını apardı. Heç kimə çətinlik yaratmazdı. Atası səsini bir balaca qaldıran kimi onu qucaqlar, "nə deyirsən, ata, əsəbiləşmə, nə istəsən de, mən edərəm" deyərdi.

Onu da qeyd edək ki, Şahin 1993-cü ildə Hacıqabul rayonunda doğulmuşdu. Cəmi bir yaşı olanda ailəsi Qubanın Zizik kəndinə köçmüşdür.

Şahin orta məktəbdə də seçilirdi. Elə bir tədbir yox idi ki, orada yer almasın. Nərgiz xanım sözünü davam etdirir:

- Balam məktəbin gözü idi. Bayramlardan qabaq uşaqlar bizə gələr, evdə məşq edərdilər. Onun özünün ardınca dostlarını aparmaq qabiliyyəti var idi. Ona görə də həmişə komandir seçərdilər Şahini. İdmana həvəsi vardı. Həmişə yarışlardan qalib kimi qayıdardı. Evdə medalların səliqə-sahmanına da özü baxardı. "Məktəbin Şahini" adını almışdı. Bütün məktəblərarası "Şahin" idman oyunlarında qalib olduğuna görə ona bu adı vermişdilər. Çox böyük zehni vardı. Bir dəfə oxuduğu yadından çıxmazdı. Nə vaxt soruşsan, düzgün cavabını verərdi. Orta məktəbi qurtarandan sonra həqiqi hərbi xidmətə yollandı. 2011-ci ildə geri qayıtdı. Əvvəllər atasına kömək edərdi.

Bu yerdə söhbətə həyat yoldaşı Kəmalə xanım qoşulur:

- 2011-ci ildə özəl şirkətlərdən birinə işə girdi. Formaca idmançı görkəmi vardı. Ona görə də mühafizəçi kimi işə götürmüşdülər. İşlədiyi müəssisədə bütün təhlükəsizlik məsələlərinə nəzarət edirdi. Dəfələrlə rəhbərliyin təşəkkürünü, pul mükafatını almışdı.

Buna baxmayaraq 2015-ci ildə Şahin Müdafiə Nazirliyinə müraciət edərək hərbi hissələrdən birində baş çavuş kimi müddətdən artıq xidmətə başlayır. Hərbi xidməti bilən və bu sahəni sevən Şahin əsgərlərin, komandanlığın hörmətini qazanır.

Kəmalə xanım sözünə davam edir:

- Hərbi paltar çox yaraşırdı Şahinə. Anamgil deyəndə ki Şahinin anası səni oğluna almaq istəyir, ağlıma gələn ilk fikir bu oldu: "Bəs özü?!" İlk görüşümüzdən bildim ki, Şahin mənim tale qismətimdir.

2017-ci ilin fevralında Şahinlə Kəmalə ailə qurur. Bu iki gəncin toyu hamının yaddaşında bir xatirə kimi hələ də yaşamaqdadır.

- Toyumuz olan günü hava o qədər sakitləşdi ki, deyərdin yazdır. Mən həmin gün taleyimin sahibinə qovuşdum. Şahin ilk gündən mənə deyirdi ki, biz həyatı, insanları sevməliyik. Bu istəkdir insanları bir-birinə yaxınlaşdıran, birləşdirən. İş yoldaşları, iş yeri, qarşılaşacağın digərləri artıq sənin bəxtindir. Pis olsalar, öz bəxtindən küs.

Hərbi işə keçəndən sonra Şahinin dostları daha da çoxalır. Öz üzərində işləməyi xoşladığından yeni iş yerinə tez uyğunlaşır.

Kəmalə xanım:

- Qızımız dünyaya gələndən sonra onun həyatı dəyişdi. Az qalırdı uşağı özü ilə hər yerə aparsın. O qədər həssas idi ki, qızının başı belə ağrıyanda elə bil ona hər şey əyan olurdu. Zəng vurub soruşanda çaşardım. Axı o, uzaq məsafədən nə bildi uşağın xəstələndiyini?! Qız da atasını görəndə sanki xəstə deyilmiş kimi olardı. Şahin onu əzizlər, yatızdırardı. Bəzən mənə elə gəlirdi ki, Şahin uşaqla oynayanda başqa adam təsiri bağışlayır. Ümumiyyətlə, birlikdə yaşadığımız dövrdə bir dəfə də olsun onun pis cəhətini görmədim. Əsgərləri ilə danışandan sonra "hə, indi rahat oldum" deyərdi. "Onlar mənə əmanətdir, komandir öz döyüşçülərini sevməli və qorumalıdır" sözləri dilindən düşməzdi.

Kəmalə xanım kövrəldikdən sonra özünü bir təhər toxtayır:

- Axşam televiziyada Ali Baş Komandanın çıxışı oldu. Vətən müharibəsinin başlandığını eşidən kimi Şahinə zəng vurdum. Sevincək cavab verdi. Hal-əhvaldan sonra bildirdi ki, düşmənləri əzməyə gedirik. Bircə Prezidentin, xalqın, millətin etimadını doğrulda biləк. Ağladım ki, özündən müğayat ol. "Mənə heç nə olmaz, vətəni qoruyanları Allah qoruyar" cavabını verdi.

Müharibənin ilk günlərindən döyüşə atılan Şahin azğın düşmənlərdən torpaqlarımızı azad edir. Füzulinin azad olunmasında yaxından iştirak edən Şahin həyat yoldaşına bunları demişdi: "Düşməni əzirik. Tezliklə bütün əraziləri alacağıq. Ali Baş Komandanımızın əmrini yerinə yetirməyə hamı can atır. Allah onu qorusun".

Baş gizir Şahin Allahyarov Füzuli, Cəbrayıl və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Noyabrın 1-də isə Şuşa uğrunda gedən döyüşlərdə şəhid olub. Ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb və "Vətən uğrunda" medalı ilə təltif edilib.

Qayınatası Ağaşirin kişi söhbətə qoşulur:

- Vətəni sevənləri həmişə bir ucalıq birləşdirir. Mən Şahini kürəkən yox, həm də oğul saymışam. Böyüklə böyük kimi rəftar edər, kiçiklərin yanında onlardan seçilməzdi. Həmişə evə gələndə qonşudakı uşaqlara hədiyyələr gətirərdi. Müharibənin başlanğıcında mənimlə danışaraq bildirdi ki, ölkəmizin başçısının dəmir yumruğu düşmənin başını əzir. Biz də bu mübarizənin döyüşçüsü kimi fəxr edirik.

Ölüm haqqında çox eşitmişik. Kimi gözləmədiyi halda ölümlə üzləşib, kim isə ölümün dik gözlərinə baxaraq xilas ola bilib. Belə hallarla kinolarda rast gələndə təəccüblənmişik. Demə, canlı həyatımızda da belə şeylər var imiş.

- Həmişə telefonla danışanda nikbin fikirlər bildirərdi, - həyat yoldaşı Kəmalə xanım bildirir, - Üzr istəyirəm, müharibə başlayanda hamilə idim. Hər dəfə mənə səbirli olmağı, balamızı qorumağı məsləhət görərdi. "Mənim sabahım qızım, günəşimsə ikinci övladımdı" deyərdi. "Əgər başıma bir şey gələrsə...."

Şahinin şəhidlik zirvəsinə yüksəlməzdən əvvəl çəkdiyi videoda həyat yoldaşı Kəmaləyə şəhid olacağı halda yeni doğulacaq övladına öz adının verilməsini vəsiyyət etmişdi.

Ağaşirin kişi:

- Şahinin birinci övladının adı Aksanadır. O vaxtı qızı olanda dedi ki, Aksana adı çox xoşuma gəlir. Kəmalə də etiraz etmədi. Ötən ilin sonlarında doğulan körpəyə isə Şahinin vəsiyyəti ilə onun adını verdik. Körpəni xəstəxanadan çıxaranda xeyli adam toplaşmışdı. Rayon rəhbərliyi, ictimaiyyət nümayəndələri onları təbrik etdilər. Körpə Şahin üçün xeyli hədiyyələr verildi.

Bu gün Qubada bu qəhrəman oğulun adının əbədiləşdirilməsi istiqamətində işlər görülür. Rayon mərkəzindəki küçələrdən birinə Şahin Allahyarovun adı verilib. Ailəsinin problemləri də daim diqqət mərkəzindədir.

❖ ❖ ❖

Deyirlər göylər vurğunu olmaq bir çoxlarına uçmaq şansı verib. Şəhidlik məqamına yetişənlər isə öz əməllərini göy üzünə təmiz pərdə kimi çəkir və onun arxasından dayanıb bizləri izləyir. Onların övladlarına, yaxınlarına olan hörməti görəndə sevinər, dua yağışını duman kimi Yer üzünə səpərlər. Səpilən o dualar isə Poladların, Mübarizlərin, Şahinlərin bizlərə göndərdikləri etibar, inam və inancdır.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***